> ❐ *...Hər dəfə qış hazırlığından söz düşəndə ibrətamiz bir məsəli xatırlayıram: “Qışdan soruşdular ki, harda qışladın? Dedi, məni gözləməyənlərin yanında”. Yəni yayda “qış imtahanı”na hazırlaşmayanlara, onun gələcəyini nəzərə almayanlara sərt üzünü göstərib.*

# Biləsuvarda qışa hazırlıq görülür








Havalar tədricən soyumağa başlayır. Ölkəmizin hər yerində qış tədarükləri görülür. Bəs Biləsuvar rayonunda vəziyyət necədir? Rayonun əlaqədar idarə və təşkilatları Muğan havasının “üçü heç eyləmək” hədələrinə qarşı durmağa hazırdırmı? Bu suallarla işıq, qaz, su təchizatçılarına, eləcə də yol, mənzil təsərrüfatı sahələrinə, təhsil və səhiyyə şöbələrinə müraciət etdik.

Biləsuvar Elektrik Şəbəkəsinin rəisi G.Səfərovun bildirdiyinə görə, şəbəkənin ərazisində sözügedən istiqamətdə bir sıra tədbirlər görülüb. Bu il rayonda elektrik enerjisinin verilişi xeyli yaxşılaşıb. Əsas hava xətlərində, transformatorlarda yenidənqurma işləri aparılıb. Yüzlərlə yeni metal və ağac dayaq basdırılıb, 5 min metr məsafədə SİP kabel xətləri çəkilib. Biləsuvar şəhərində, Zəhmətabad, Bəydili, Xırmandalı, Əliabad kəndlərində 453 ədəd yeni Smart-kart sayğacı quraşdırılıb və bu işlərdə 1390 metr SİP kabelindən istifadə olunub. Biləsuvar yarımstansiyasında gərginlik altında olan izolyatorlar dəyişdirilib. Aşağı Cürəli, Günəşli, Zəhmətabad kəndlərində, 4 nömrəli məktəbin ərazisində yeni, daha güclü transformatorlar qoyulub. Yuxarı Ağalıda, Nərimankənd, Muğankənd və Nəsimikənddə mövcud transformatorlar əsaslı və cari təmir edilib. Hava xətləri maneələrdən təmizlənib, naqillər tarımlanıb və dirəklər rənglənib. Hazırda işlər davam etdirilir. Bütün bunlar deməyə əsas verir ki, qış mövsümündə də rayon dayanıqlı elektrik enerjisi ilə təchiz olunacaq.

Bugünlərdə Xırmandalı kəndinin yeni yaşayış massivinə təbii qaz verilməsinə həsr edilən mərasim keçirildi. Bu kəndin genişlənən hissəsində artıq 286 ev təsərrüfatı var və hamısında yeni sayğac quraşdırılıb. Daşıyıcı və məhəllədaxili qaz xətlərinin çəkilişi üçün 23 min 540 metr böyük diametrli yerüstü, eləcə də 7 min 037 metr xırda diametrli polad borulardan istifadə edilib. Açılış münasibətilə keçirilən tədbirdə SOCAR prezidenti Rövnəq Abdullayev və “Azəriqaz”ın baş direktoru Əkbər Hacıyev də iştirak etdilər. R.Abdullayev əlamətdar hadisə münasibətilə kənd sakinlərini təbrik edərək dedi ki, bütün yaşayış məntəqələrinin, o cümlədən yeni massivlərin “mavi” yanacaqla təmin olunması xalqın rifah halının daha da yaxşılaşmasına, həmçinin ekologiyanın qorunmasına xidmət edir. Rayon icra hakimiyyətinin başçısı Mahir Quliyev Biləsuvarın yaşayış məntəqələrinin bütünlüklə qazlaşdırılmasını Prezident İlham Əliyevin bölgələrə qayğısının nəticəsi kimi dəyərləndirdi.

Bu il Ələt–Astara magistral avtomobil yolunun rayon ərazisindən keçən hissəsində, Biləsuvar–İran sərhədi avtomobil yolunda təmir işləri aparılıb. Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi (81 kilometr) – Biləsuvar avtomobil yolunun yenidən qurulması işləri başa çatdırılıb. Burada yolun hərəkət zolağı genişləndirilməklə 2 qat asfalt-beton örtük qoyulub. “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda nəzərdə tutulmuş Biləsuvar–Bəhrəmtəpə (56 kilometr)–Çaylı–Bağbanlar-Aranlı–Zəhmətabad avtomobil yolunun tikintisi sürətlə davam etdirilir. Şəhər ərazisində kanalizasiya çəkilişi zamanı yararsız vəziyyətə düşmüş 7 kilometrlik yol isə yenidən asfaltlaşdırılıb.

Biləsuvar Sukanal Sahəsinin rəisi Z.Məmmədovdan aldığımız məlumata görə, artıq 6 ildir ki, şəhərdə Prezident İlham Əliyevin açılışında iştirak etdiyi su xəttindən istifadə edilir. Bu xəttin sayəsində camaat tam təmizlənmiş, zərərsizləşdirilmiş, bir sözlə, dünya standartlarına cavab verən su ilə təmin olunur. Sukanal sahəsi şəhərin 19 minlik əhali və 108 qeyri-əhali qrupuna, eləcə də 6 kənddə 3 min 500 nəfərlik əhali və 7 qeyri-əhali qrupuna xidmət göstərir. Hacıqabul rayonundan 710 millimetrlik boru vasitəsilə vurulan su Zəhmətabad kəndindəki anbara daxil olur, orada təkrar zərərsizləşdirilir və nasoslarla şəhər əhalisinə çatdırılır.

Kənd əhalisinə isə Cənub–Muğan kanalının suyu ilə xidmət göstərilir. Payız-qış mövsümünə hazırlıqla əlaqədar bütün nasoslar yağlanıb, açıq havada olan qurğular izolə edilib, elektrik təchizatı tam saz vəziyyətə gətirilib.

Biləsuvar Rayon Mənzil Təsərrüfatı Təmir-İstismar İstehsalat sahəsinin rəisi A.Məmmədovun təqdim etdiyi arayışda qeyd olunduğuna görə, bu kollektiv qabaqlayıcı tədbirlər görərək, ötən qış fəslində üzə çıxan çatışmazlıqları tam aradan qaldırıb. Rayonda mövcud olan 75 ümumi yaşayış binasının tüstü bacaları təmizlənib, çardaq hissələrindəki pəncərələr şüşələnib və yanar taxta konstruksiyalara odadavamlı məhlul hopdurulub. Həmçinin binaların ərazisindəki anbarlarda səliqə-sahman yaradılıb, bərk və maye tullantılar daşınaraq çirkli sahələr təmizlənir.

Təhsil və səhiyyə şöbələri üzrə də qışa hazırlıq tədbirləri icra edilməkdədir. Rayondakı 25 məktəbin 12-si qazanxana vasitəsilə, 23-ü isə odun sobası ilə qızdırılır. Şəhərdəki yeni tam orta məktəbin binası istifadəyə verilən zaman burada müasir qazanxana da istismara buraxılıb. Qalan bütün qazanxanalarda cari təmir işləri görülüb. Şəhər 1 nömrəli və Ağayrı kənd ümumi məktəbləri, həmçinin İsmətli kənd tam orta məktəbi ilin sonuna kimi təhsil nazirliyinin Əsaslı Tikinti və Təchizat idarəsinin köməyi ilə qaz xəttinə qoşulacaq. İndiyədək bu təhsil ocaqları duru yanacaqla qızdırılırdı. Odun sobası ilə qızdırılan məktəblərin isə noyabrın 15-dək doğranmış quru odunla təmin edilməsi üçün sifariş verilib.

Mərkəzi rayon xəstəxanasının istilik sisteminə baxış keçirilib və tələbat olan yerləri təmir edilib. Sınmış pəncərə və qapı şüşələri dəyişdirilib. Xırmandalı kənd sahə xəstəxanasında da bütün qapı və pəncərələrə, eləcə də dam örtüyünün dağılmış hissələrinə əl gəzdirilib. Otaqlar qızdırıcı sobalarla təmin olunub, lazımi qədər dizel yanacağı sifariş verilib. Kənd həkim məntəqələrində də cari təmir işləri həyata keçirilib. Hazırda bu məntəqələr üçün doğranmış meşə odunu alınmaqdadır.

Nəhayət, onu da qeyd edək ki, Biləsuvar şəhərinin inkişafı, onun gözəlliyinin qorunması və müvafiq kommunikasiya sisteminin hazırlanması məqsədilə baş plan, hazırlanır. Rayon üzrə payız-qış mövsümündə baş verə biləcək xüsusi hallar zamanı hər bir təşkilatın vəzifələri bir daha dəqiqləşdirilir və konkret fəaliyyətlə bağlı zəruri tövsiyələr verilir. Vaxt varkən, qışa hazırlıqla əlaqədar bütün tədbirlərin görülməsi üçün addımlar atılır.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”nin***
***bölgə müxbiri***

Xalq qəzeti.- 2019.- 13 oktyabr.- S.6.